Litva

Reception and Integration Agency

euaa EUROPEAN UNION AGENCY FOR ASYLUM

# QƏBUL ZAMANI HÜQUQ VƏ VƏZİFƏLƏRİN



**Bu məlumat sənin üçündür, əgər:**

- yaşın 18-dən azdırsa
- valideynlərindən biri və ya hər ikisi ilə gəlmisən
- sən və ailən Litvada sığınacaq (həmçinin beynəlxalq himayə adlanır) üçün müraciət etmisinizsə.

Qeydiyyat üçün versiya

AZERBAIJANI

# MÜNDƏRİCAT


| | |
|---|---|
| Sən və ailən bu ölkədə özünüzü təhlükəsiz hiss edə bilərsiniz | 3 |
| Sənə kim kömək edə bilər? | 3 |
| Sən və ailən nə əldə edəcəksiniz? | 4 |
| Tibbi xidmətlər almaq hüququ | 6 |
| Əməkdaşları məlumatlandır | 7 |
| Ən yaxşı maraqların qiymətləndirilməsi nədir? | 8 |
| Təhsil almaq hüququ | 8 |
| Əmək hüququ | 9 |
| Sığınacaq axtaran şəxs olaraq sənədin | 9 |
| Sən və ailən harada qalacaqsınız? | 10 |
| Kimsə səninlə pis rəftar edirsə, nə edə bilərsən? | 11 |
| Qəbul üzrə sənin və ailənin hansı vəzifələri var? | 12 |
| Sən və ya ailən vəzifələrinizi yerinə yetirmədiyiniz halda nə baş verir? | 13 |
| Beynəlxalq himayə üçün müraciət və digər ölkələrə səfər üzrə qaydalar | 14 |
| Sən və ailən Aİ+ ölkələrindən birinə qaçdığınız halda nələr baş verir? | 15 |
| Səlahiyyətli orqanların verdiyi qərarla razı olmadığınız halda sənə və ailənə kim kömək edə bilər? | 16 |
| Dəstəklə bağlı hər hansı dəyişiklik olsa nə baş verir? | 16 |
| Əlaqə məlumatları | 17 |

## SƏN VƏ AİLƏN BU ÖLKƏDƏ ÖZÜNÜZÜ TƏHLÜKƏSİZ HİSS EDƏ BİLƏRSİNİZ

Sən və ailən səlahiyyətli orqanlara təhlükədə olduğunuz üçün ölkənizə qayıda bilməyəcəyinizi bildirdiniz və sığınacaq üçün müraciət etdiniz. Sən və ailən Litvada sığınacaq axtaran şəxslərsiniz.

## SƏNƏ KİM KÖMƏK EDƏ BİLƏR?



Avropada yaşı 18-dən az olan hər kəs uşaq hesab edilir, buna görə də onun **xüsusi dəstək** almaq hüququ var.

Ölkədə qaldığın müddətdə sənə bir çox mütəxəssis kömək edə bilər, məsələn:

- **Sosial işçi** sənə və ailənə gündəlik ehtiyaclarınızı qarşılamağa və ya müəyyən bir məsələdə sizə yardım göstərə biləcək digər mütəxəssislərlə əlaqə yaratmağınıza kömək edəcək.
- **Həkim** və ya **tibb bacısı** sənə özünü pis hiss etdiyin halda, yaralandıqda və ya hər hansı bir tibbi yardıma ehtiyacın olduqda kömək edəcəklər.
- **Psixoloq** sənə özünü kədərli, qəzəbli, qorxmuş, narahat hiss etdiyin halda və ya yaxşı yata bilmədikdə kömək edəcək.
- **Hüquq məsləhətçisi** sənə və ailənə sığınacaq verilməsi prosesi zamanı, eləcə də hüquqlarınıza hörmət edilmədiyini düşündüyünüz hallarda nə baş verdiyini anlamağınıza kömək edəcək.
- **Tərcüməçi** anladığın dildə ünsiyyət qurmağına kömək edə bilər. Onun vəzifəsi sənin və başqalarının dediklərini dəqiq tərcümə etməkdir.

Hər hansı bir problemin var? Kömək və dəstək almaq üçün hər zaman əməkdaşlara müraciət edə bilərsən. Qorxma, bütün problemlər birlikdə həll edilə bilər.

# SƏN VƏ AİLƏN NƏ ƏLDƏ EDƏCƏKSİNİZ?

Sığınacaq üçün ərizənizin səlahiyyətli orqanlar tərəfindən nəzərdən keçirilməsini gözləyərkən siz müxtəlif növ dəstək və xidmətlər əldə edəcəksiniz. Buna **qəbul** deyilir.

Bir uşaq və sığınacaq axtaran şəxs kimi sənin yalnız hüquqların deyil, həm də əməl etməli olduğun vəzifələrin var. Onlar bu kitabçada izah edilir.

Kitabçada olan məlumatın hər hansı bir hissəsini başa düşmədinsə və ya əlavə sualların varsa, əməkdaşlardan və valideynlərindən soruş.



Bu ölkədə qaldığın müddətdə əməkdaşlar hər hansı vəziyyətindən asılı olaraq sənə əlavə məlumat verəcəklər. Sən istənilən vaxt suallar verə bilərsən.

**Vəziyyətinizdən asılı olaraq sən və ailən aşağıdakıları əldə edəcəksiniz:**



- yatmaq üçün yer



- yemək və ya yemək almaq üçün pul



- geyim



- şəxsi gigiyena vasitələri



- Ailən həmçinin gündəlik xərclər üçün pul ala bilər.

# TİBBİ XİDMƏTLƏR ALMAQ HÜQUQU

**Səlahiyyətli orqanlar sənin zəruri tibbi yardım almanı təmin edəcəklər.**

**Sən yaşadığın hər hansı bir sağlamlıq problemi haqqında ailənə və əməkdaşlara məlumat verə bilərsən.** Lazım gələrsə, onlar tibb bacısına və ya həkimə müraciət etməyinə kömək edəcəklər.



Həkim bunu zəruri hesab edərsə, dərmanlar təyin edəcək və mütəxəssisə görünməyini məsləhət görəcək.

Tibb bacısı və ya həkim tərəfindən müayinədən keçməli olacaqsansa, əməkdaşlar sənə və ailənə bu barədə məlumat verəcəklər.

Onlar sənin sağlamlığınla maraqlana bilər və sənə lazım olan yardımı göstərəcəklər.

Təcili tibbi yardıma ehtiyacın və ya təcili müalicə tələb edən bir yaran varsa, valideynlərinə və ya əməkdaşlara bu barədə məlumat ver. Qaldığın yerdən kənardasansa, 112 təcili yardım nömrəsinə pulsuz zəng edə bilərsən.

## ƏMƏKDAŞLARI BU HALLARDA MƏLUMATLANDIR:







- özünü yaxşı hiss etmirsən, yaralanmısan, yaxud təcili tibbi yardıma və ya dərmana ehtiyacın var
- narkotik və ya spirtli içki qəbul edirsən
- keçmişdə zorakılığa və ya istismara məruz qalmısan və ya hazırda bununla qarşılaşırsan
- hamiləsən və ya hamilə ola bilərsən
- özün yeriyə bilmirsən və ya eşitmə və ya görmə problemin var
- çox narahatsan, kədərlisən, yata bilmirsən və ya mənfi düşüncələrin var
- özünü təhlükədə hiss edirsən, yaxud yad adamdan və ya tanıdığın birindən qorxursan
- səni istəmədiyin şeyləri etməyə məcbur ediblər və ya indi məcbur edirlər
- inancına, sevdiyin insana, geyim və ya davranış tərzinə görə özünü təhlükədə hiss edirsən
- ailə üzvlərinin dəstəyə ehtiyacı var.



## ƏN YAXŞI MARAQLARIN QİYMƏTLƏNDİRİLMƏSİ NƏDİR?



Bu fəaliyyət zamanı sən başqa əməkdaşlar görəcəksən və onlar sənə aşağıdakı məqsədlərlə suallar verəcəklər:

- sənin **ehtiyaclarını** anlamaq üçün
- hansı **dəstəyə** ehtiyacın olduğunu müəyyən etmək üçün

Bu, səlahiyyətli orqanlara vacib qərarlar qəbul etməyə kömək edəcək, məsələn, sənin və ailənin harada qalacağınızla bağlı.

Sən tibb bacısına, həkimə və əməkdaşlara etibar edə bilərsən. Sən onlarla hər şeyi paylaşa bilərsən. Sənin razılığın olmadan dediklərinin heç biri valideynlərindən başqa heç kimlə paylaşılmayacaq. Yeganə istisna, həyatınızın və ya başqasının həyatının təhlükədə olması və ya qanunla tələb olunan hallardır.
Əgər valideynlərinin məlumatlandırılmasını və ya cəlb olunmasını istəmirsənsə, bunu əməkdaşlara bildir. Onlar sorğunu araşdıracaq və sənin üçün nəyin daha yaxşı olduğuna əsasən qərar verəcəklər.

## TƏHSİL ALMAQ HÜQUQU



Bir uşaq olaraq sənin təhsil almaq və oxumaq hüququn var. Əgər məktəbdə oxuyursansa və bu müddət ərzində 18 yaşın tamam olursa, məzun olana qədər təhsilini davam etdirə bilərsən.

Əməkdaşlar yerli məktəbdə qeydiyyatdan keçməyinə kömək edəcəklər. Onlar dil üzrə hazırlıq kursları və digər proqramlar barədə sənə məlumat verəcəklər. Bu proqramlardan bəzilərində iştirak etməli ola bilərsən.

Əməkdaşlar sənə öyrənməyə, inkişaf etməyə və yeni dostlar qazanmağa kömək edəcək təhsil və istirahət fəaliyyətləri haqqında məlumat verəcəklər.

# ƏMƏK HÜQUQU





Yaşından və vəziyyətindən asılı olaraq, istəyinə görə sənin Litvada işləməyinə icazə verilə bilər. Əməkdaşlar sənə əlavə məlumat verəcəklər.

Əgər sığınacaq üçün müraciətinizlə bağlı altı ay ərzində heç bir qərar verilməyibsə və gecikmə sizin təqsirinizdən baş verməyibsə, Litvada işləyə bilərsiniz.



14 yaşdan kiçik olan bütün oğlan və qızlara işləməyə icazə verilmir.

# SIĞINACAQ AXTARAN ŞƏXS OLARAQ SƏNƏDİN



Üzərində adın və şəklin olan şəxsi sənəd alacaqsan.

Bu, sənin bu ölkədə sığınacaq axtaran şəxs olduğunu göstərir. Sənəd hər zaman üstündə olmalıdır.

Bu sənəd çox vacibdir, onu itirməməyə səy göstərməli və başqasına verməməlisən.

Bu sənəd, "Əcnəbinin qeydiyyat vəsiqəsi" adlanır.

# SƏN VƏ AİLƏN HARADA QALACAQSINIZ?

Səlahiyyətli orqanlar sığınacaq üçün ərizəni nəzərdən keçirdikləri müddət ərzində qalacağın yer vəziyyətindən asılıdır.



Əməkdaşlar sizə **harada qalmalı olduğunuzu** bildirəcəklər, məsələn, müəyyən bir yaşayış yerində, yaxud şəhərdə və ya bölgədə.

Bu, mövcud olan yerlərdən ya ailənin ehtiyaclarından asılı ola bilər.

Ailən yaşayış yerindən kənarda qalmaq və ya şəhəri və ya bölgəni qısa müddətə tərk etmək istəyirsə, icazə almaq üçün səlahiyyətli orqanlara müraciət etməlidir.

**Sən və ailən yalnız səlahiyyətli orqanların qərar verdiyi yerdə dəstək və xidmətlər ala bilərsiniz.**

Çox nadir hallarda ailələr istədikləri kimi girib-çıxa bilməyəcəkləri bir mərkəzə yerləşdirilə bilərlər. Bu vəziyyətdə olduğunuz halda hüquq məsləhətçisi və əməkdaşlar sizə yardım edəcəklər.

**Haraya yerləşdirildiyindən asılı olmayaraq, sənin aşağıdakılara hüququn var:**



- **ailənlə birlikdə qalmağa**




- **ailə üzvlərinin harada olduqlarını bilmirsənsə, onları axtarmaq üçün kömək almağa**

**Özünü təhlükəsiz hiss etmək hüququn var. Heç kimə icazə verilmir:**



səni təhdid etməyə



səni təhqir etməyə



sənə zərər verməyə

Fərq etməz, bu kimdir: yad adam, ya tanıdığın biri.
Valideynlərinlə və ya əməkdaşlarla bağlı hər hansı bir problemin varsa, bu barədə açıq danışa bilərsən.

## KİMSƏ SƏNİNLƏ PİS RƏFTAR EDİRSƏ, NƏ EDƏ BİLƏRSƏN?



Etibar etdiyin birinə, ailə üzvünə, hər hansı əməkdaşa və ya Dövlət Uşaq Hüquqlarının Müdafiəsi və Övladlığa Götürmə Xidməti. Onların əlaqə məlumatlarını bu broşürün sonunda tapa bilərsən.

Əgər kimsə səninlə pis rəfrar edirsə, belə halların təkrarlanmaması üçün bu barədə səlahiyyətli orqanlara məlumat verə bilərsən. Buna "şikayət vermək" deyilir.



**Diqqət!**
Qaldığın yerdən kənardasan və təhlükədəsənsə, istənilən telefondan 112 milli təcili yardım nömrəsinə pulsuz zəng edə bilərsən.

## QƏBUL ÜZRƏ SƏNİN VƏ AİLƏNİN HANSI VƏZİFƏLƏRİ VAR?

Hekayəni danışmaq bəzən qorxulu və çətin olsa belə, həqiqəti söyləmək və səlahiyyətli orqanlarla əməkdaşlıq etmək çox vacibdir.

Əməkdaşlar vəziyyətindən xəbərdar olsalar, sənə kömək edə bilərlər.



Sən və ailənin harada qalacağınızdan asılı olmayaraq, riayət etməli olduğunuz qaydalar olacaq. Misal üçün, digər sakinlərə və əməkdaşlara hörmət etməlisiniz və istirahət saatlarında səs-küy salmamalısınız.

Əməkdaşlar sizə qaydaları və onlara riayət etməməyin nəticələrini izah edəcəklər.

Sən və ailən üçün bunlar çox vacibdir:

✔ qaldığınız yerin qaydalarına əməl etmək

- Məkanı təmiz saxlayın.
- Dava etməyin
- Heç vaxt spirtli içki və ya narkotik vasitələrdən istifadə etməyin
- Rəsmi orqanlarla əməkdaşlıq edin

✖ səlahiyyətli orqanların göstərişinə əsasən qaldığınız yerdən qaçmamaq

✔ əməkdaşlar tərəfindən sizə izah ediləcək bu ölkənin qanunlarına əməl etmək.

## SƏN VƏ YA AİLƏN VƏZİFƏLƏRİNİZİ YERİNƏ YETİRMƏDİYİNİZ HALDA NƏ BAŞ VERİR?



Belə bir hal baş verərsə, açıq danışaraq, vəziyyətinizi və səbəblərinizi izah edə bilərsiniz.

Səlahiyyətli orqanlar vəziyyəti qiymətləndirəcək və hər hansı bir tədbir görməyə qərara gəlsələr, valideynlərinə bu barədə məlumat verəcəklər.



Məsələn, ailə üzvlərindən biri səlahiyyətli orqanların göstərişinə əsasən qaldığı yerdən, şəhərdən və ya bölgədən qaçdığı halda, **həmin ailə üzvü daha az dəstək ala bilər**.



Ailə üzvlərindən biri aqressiv davranırsa, **həmin ailə üzvü aldığı dəstəyi itirə bilər**. Polisə müraciət edilə bilər.

**Hazırda sən və ailən Litvadasınız, bu, Aİ+ ölkələrindən biridir.**
**Aİ+ ölkələrinə daxildir:**

- Avropa İttifaqına (Aİ) üzv olan 27 dövlət: Almaniya, Avstriya, Belçika, Bolqarıstan, Çexiya, Danimarka, Estoniya, Finlandiya, Fransa, Hollandiya, Xorvatiya, İrlandiya Respublikası, İspaniya, İsveç, İtaliya, Kipr, Latviya, Litva, Lüksemburq, Macarıstan, Malta, Polşa, Portuqaliya, Rumıniya, Slovakiya, Sloveniya, Yunanıstan və
- digər 4 ölkə: İslandiya, İsveçrə, Lixtenşteyn və Norveç.

## SIĞINACAQ ÜÇÜN MÜRACİƏT VƏ Aİ+ ÖLKƏLƏRİNƏ SƏFƏR ÜZRƏ QAYDALAR

**Əməkdaşlar bu vacib qaydaları sənə və ailənə izah edəcəklər. Sən istədiyin zaman onlara sual verə bilərsən.**



- ✅ Sən və ailən Litvada qalmalısınız və digər Aİ+ ölkələrindən birinə qaçmamalısınız.

- ✅ Bu ölkələrdən birində qohumlarınız varsa, səlahiyyətli orqanlar ailənizin yenidən birləşməsi hüquqların haqqında sizə məlumat verəcəklər. Ancaq qaçmaq lazım deyil.

  Bu ölkəni tərk etməyi düşünə bilərsiniz, və ya bəzi insanlar ölkədən qaçmaq üçün sizi inandırmağa çalışacaqlar. Bu sizin üçün təhlükəli ola bilər. Sən və ailən əməkdaşlarla danışa və onlara vəziyyəti izah edə bilərsiniz. Əməkdaşlar sizə məsləhət verə bilərlər.

- ❌ Əgər qaçsanız, bu, kitabçada təsvir olunan mənfi nəticələrə səbəb olacaq. Məsələn, digər ölkədə qəbul üzrə daha az dəstək alacaqsınız.

- ✅ Unutmayın ki, səlahiyyətli orqanlar sizə fərqli məlumat vermədikləri təqdirdə, sığınacaq üçün ərizənizi ilk gəldiyiniz Aİ+ ölkəsində qeydiyyatdan keçirməlisiniz.

- ✅ Bu ölkələrdən yalnız biri sığınacaq üçün ərizənizi nəzərdən keçirməkdən məsuldur. Litvanın səlahiyyətli orqanları buna görə hansı ölkənin məsuliyyət daşıdığını sizə bildirəcəklər.

Bu proseslər barədə məlumatı ayrı kitabçalardan alacaqsınız.

# SƏN VƏ AİLƏN Aİ+ ÖLKƏLƏRİNDƏN BİRİNƏ QAÇDIĞINIZ HALDA NƏLƏR BAŞ VERİR?




**Litvada**

- sığınacaq verilməsi prosesiniz dayandırıla bilər.

**Digər Aİ+ ölkəsində:**

- səlahiyyətli orqanlar sizi tərk etdiyiniz Aİ+ ölkəsinə geri göndərməyə qərar verə bilərlər.

Səlahiyyətli orqanlar sizi geri göndərmək qərarı barədə sizə məlumat verdikləri andan etibarən siz müəyyən hüquqlardan məhrum qalacaqsınız, məsələn:

- bəzi dəstək növlərini almayacaqsınız və
- işləməyinizə icazə verilməyəcək.

## SƏN VƏ AİLƏN SƏLAHİYYƏTLİ ORQANLARIN VERDİYİ QƏRARLA RAZI OLMADIĞINIZ HALDA SİZƏ KİM KÖMƏK EDƏ BILƏR?



Siz hüquq məsləhətçisindən kömək istəyə bilərsiniz. Hüquq məsləhətçisi, bu ölkənin qaydalarını yaxşı bilən və vəziyyətini araşdırıb sənə yardım edə bilən bir şəxsdir.

Əməkdaşlar sizi məlumat və yardımla təmin edə biləcək qeyri-hökumət təşkilatları haqqında məlumat verəcəklər.




Siz istənilən vaxt BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı (UNHCR) ilə əlaqə saxlaya bilərsiniz. UNHCR öz ölkəsini tərk etmək məcburiyyətində qalan insanları qoruyur.

## DƏSTƏKLƏ BAĞLI HƏR HANSI DƏYİŞİKLİK OLSA NƏ BAŞ VERİR?

Əgər səlahiyyətli orqanlar 13-cü səhifədə təsvir edilən vəziyyətlə əlaqədar olaraq ailə üzvünün əldə etdiyi müəyyən dəstək növlərini məhdudlaşdırmaq və ya ləğv etmək qərarına gəlsələr, həmin ailə üzvü yenə də şəxsi vəziyyətinə və ehtiyaclarına uyğun dəstəyi alacaq. Onlar yenə də həkimə və ya tibb bacısına müraciət edə, tibbi yardım ala, müəyyən dəstək (*məsələn yemək*) və səlahiyyətli orqanların qərar verdiyi yerdə gecələmək üçün yer ala biləcəklər.



Səlahiyyətli orqanlar başqa bir Aİ+ ölkəsinə qaçdığınıza görə sənə və ailənə verilən qəbul dəstəyini ləğv etmək qərarına gəldikdə, almağa davam edəcəyiniz dəstək növü vəziyyətinizdən və ehtiyaclarınızdan asılı olacaq.

Sən məktəbə getməyə davam edə biləcəksən.

# ƏLAQƏ MƏLUMATLARI

Sənin və ailənin hər hansı bir sualı və ya qaldığınız müddətdə dəstəyə ehtiyacı varsa, qeyd olunan orqanlarda işləyən əməkdaşlarla əlaqə saxlaya bilərsiniz:

| qəbul üzrə səlahiyyətli orqan | |
|---|---|
| Reception and Integration Agency | info@piia.lt +370 602 49364 |

| digər müvafiq səlahiyyətli orqan | |
|---|---|
| Miqrasiya İdarəsi | info@migracija.gov.lt +370 707 67000 |

| digər müvafiq səlahiyyətli orqan | |
|---|---|
| Dövlət Sərhəd Mühafizə Xidməti | dvks@vsat.vrm.lt +370 707 59305 |

Həmçinin aşağıdakı məsələlərlə bağlı qeyd olunan təşkilatlara müraciət edə bilərsən:

| tibbi dəstək | |
|---|---|
|  | Qəbul və İnteqrasiya Agentliyi<br>info@piia.lt +370 602 49364<br>və ya Agentlik daxilində ixtisaslaşmış əməkdaşlara müraciət edin |

## psixososial dəstək



Vilnüs Arxiyepiskopluğunun "Caritas" Təşkilatı

kulturunamai@vilnius.caritas.lt +370 673 48052

Qəbul və İnteqrasiya Agentliyi

info@piia.lt +370 602 49364

və ya Agentlik daxilində ixtisaslaşmış əməkdaşlara müraciət edin

Uşaqlar və yeniyetmələr üçün anonim emosional dəstək:

116 111 (11:00-dan 00:00-dək)

Onlayn çat vasitəsilə dəstək (14:00-dan 23:00-dək)

www.vaikulinija.lt

Gənclər üçün emosional dəstək:

+370 800 28888 (24/7)

Onlayn çat vasitəsilə dəstək (24/7)

www.jaunimolinija.lt

## uşaqların müdafiəsi



Uşaq Hüquqlarının Müdafiəsi və Övladlığagötürmə Dövlət Xidməti

info@vaikoteises.lt 0 800 10 800

## təhlükədə olan uşaqlar üçün Qaynar Xətt



Əgər özünü unudulmuş hiss edirsən və ya təhlükədəsənsə, bazar ertəsindən şənbə gününədək saat 08:00-dan 20:00-dək 0 800 10 800 nömrəsinə pulsuz zəng edə bilərsən.

İş saatlarından kənar, qeyri-iş günlərində və ya bayram günlərində uşaq hüquqlarının pozulması ilə bağlı şübhə yarandıqda, təcili yardım nömrəsi **112**-yə zəng edərək Təcili Xidmətlərlə əlaqə saxlayın.

Uşaqlar və yeniyetmələr üçün anonim emosional dəstək:

116 111 (11.00-dan 23.00-dək)

## hüquqi məsləhət, yardım və təmsilçilik



Dövlət tərəfindən təmin edilən hüquqi yardım:

teisines.paslaugos@piia.lt +370 602 49364

Litva Qızıl Xaç Cəmiyyəti: hüquqi məsləhət

legal@redcross.lt; ailə üzvlərinin və qohumların tapılması və əlaqələndirilməsi tracing@redcross.lt

**BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı (UNHCR)**
sığınacaq axtaran şəxslərin və qaçqınların maraq və hüquqlarını qoruyur.




Litvadakı BMT QAK haqqında – BMT QAK Litva

**Telefon:**

UNHCR-in Şimali və Baltikyanı Ölkələr üzrə Nümayəndəliyi (Stokholm, İsveç): 📞 +46 10 10 12 800 (Bazar ertəsi – Cümə, 10:00-12:00 Stokholm vaxtı ilə)

UNHCR-in Əlaqələndirmə Ofisi (Vilnüs, Litva): 📞 +370 5210 7416 (Bazar ertəsindən cümə gününə qədər, 09:00-17:00 Vilnüs vaxtı ilə)

**E-poçt:** 🖂 swestprotection@unhcr.org

| | |
|---|---|
| Litva Qızıl Xaç Cəmiyyəti: monitorinq | 🖂 stebesena@redcross.lt 📞 +370 682 16597 |
| Beynəlxalq Miqrasiya Təşkilatı (IOM) Vilnüs Ofisi | Könüllü geri qayıtma və reinteqrasiya yardımı 📞 +370 8001 2342, 🖂 iomvilnius@iom.int |

Təcili tibbi yardıma ehtiyacın varsa və təhlükədəsənsə, dərhal valideynlərinlə və əməkdaşlarla əlaqə saxla. Onlar sənə kömək edəcəklər!

Əgər sən və ailən qaldığınız yerdən kənardasınız və qəza keçirmisiniz və ya təhlükədəsinizsə, bu təcili yardım nömrəsinə pulsuz zəng edə bilərsiniz:

**təcili tibbi yardım: 112**

**polis: 112**

Telefonun yoxdursa, başqa birindən sənin əvəzinə təcili yardım nömrəsinə zəng etməsini istəyə bilərsən.

Bu kitabça yalnız məlumatlandırma məqsədləri üçün nəzərdə tutulub. O özü heç bir hüquq və ya öhdəlik yaratmır. Bu materialın əsas hissəsini Avropa İttifaqının Sığınacaq Agentliyi (EUAA) təqdim edib, və bu kitabçanın surətinin çıxarılmasına və dəyişdirilməsinə EUAA tərəfindən yalnız Aİ-nin üzvü olan dövlətlərə icazə verilir. Aİ-nin üzvü olan dövlətlər və ya digər səlahiyyətli üçüncü şəxslər tərəfindən bu kitabçaya daxil edilən məlumatların dəqiqliyi, məzmunu, tamlığı, qanuniliyi və ya etibarlılığına görə EUAA heç bir məsuliyyət və ya cavabdehlik daşımır. Bu kitabçada mövcud olan məlumatlardan istifadəyə görə nə EUAA, nə də EUAA adından hərəkət edən hər hansı bir şəxs məsuliyyət daşımır.

© European Union Agency for Asylum, 2025